90 illik yubileyini qeyd etdiyimiz akademik Arif Paşayev dünya elm tarixinə tanınmış fizik, ixtiraçı, təhsil təşkilatçısı, yerli və beynəlxalq akademiyalar və elmi cəmiyyətlərin fəxri üzvü, korifey və patriarx kimi daxil olub. Azərbaycan miqyasında isə o, yüksək elmi şücaət, vətəndaş asketizmi və Vətənə sevgi örnəyi kimi qəbul edilməkdədir. Arif Paşayev sözün həqiqi mənasında öz istedadı, bilikləri sayəsində zirvələrə yüksəlib və insani keyfiyyətləri ilə bir örnəyə çevrilib. Böyük alim, qayğıkeş pedaqoq və həqiqi vətəndaş A. Paşayevin həyat yoluna nəzər salanda onun şəxsiyyətinin çoxcəhətliliyi, böyüklüyünün bir daha təsdiqini tapırıq. O, bir alim kimi zəngin və məzmunlu bir ömür yaşayır, bir ziyalı kimi öz xeyirxah əməlləri, gərgin və dinamik fəaliyyəti ilə cəmiyyətə böyük xeyir gətirir.

Akademik Arif Paşayevlə mən 1965-ci ildən tanışam və uzun illər Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasında birgə çalışmışıq. Tale elə gətirib ki, həmin illərdə Arif Paşayevin ömür-gün yoldaşı, görkəmli şərqşünas alim, Şərqşünaslıq Institutun direktoru professor Aida xanım İmanquliyeva ilə də Elmlər Akademiyasında çox tez-tez rastlaşırdıq. Mən Arif müəllimi onun elmi karyerasının müxtəlif mərhələlərində – gənc elmlər namizədi olduğu zamandan elmlər doktoru, professor elmi dərəcə və adları qazandığı, akademik seçildiyi zamanlar, sonralar isə bir çox xarici akademiyaların üzvü, dünyanın tanınmış universitetlərinin fəxri professoru kimi fəaliyyət göstərdikdən sonrada müşahidə etmişəm. Bu illər ərzində onun nə xasiyyətində, nə davranışında, nə insanlara münasibətində heçnə dəyişmədi. Böyük alim olmaqla yanaşı, Arif müəllim eyni dərəcədə çox təvazökar, hər bir şəxsə diqqətlə yanaşan, qayğıkeş bir insandır. Mən onun yüksək humanizminin nümunələrinin uzun illər və çox fərqli şəraitdə şahidi olmuşam. Akademik A. Paşayev eyni zamanda yüksək mədəniyyət daşıyıcısıdır. Bu mədəniyyətin onun daxilindən gəlməsi hər zaman hiss olunur. Bu, özünü onun hərəkətləri, davranışı, danışıq üslubu, hətta çox zövqlə seçilmiş geyimlərində də göstərir. O, elmdə korifey olmaqla yanaşı, çox böyük və zəngin intellektə malikdir. O əsl ziyalı etalonu hesab edilə bilər. Onun şəxsiyyətində bilik, bacarıq, vətənpərvərlik, humanizm, yüksək ədalət hissi bir vəhdət təşkil edir.

Arif müəllim olduqca nadir istedad və biliyə malikdir. O akademikdir, lakin mühəndis və innovativ idarəçi təfəkkürlü akademikdir. Bu, olduqca nadir bir haldır ki, akademik eyni uğurla nəzəri işləri aparsın və eyni səmərəliliklə bilikləri tətbiq etsin.

Görkəmli alim, fizika-riyaziyyat elmləri doktoru, professor və akademik elm sahəsində nailiyyətlərinə görə yüksək ödüllərə layiq görülüb. Əlbəttə, fizika, riyaziyyat kimi elm sahələrində hər bir kəşfin, uğurun, yeni yanaşmanın arxasında necə gərgin əmək və xüsusi biliklərin, istedadın dayandığını hər kəs yaxşı bilir. Bu, eyni zamanda Arif müəllimin şəxsi keyfiyyətləri ilə yanaşı,böyüyüb başa çatdığı, formalaşdığı mühit, genetik faktorlarla da birbaşa bağlıdır. O, sözün əsl mənasında həqiqi korifeylərin əhatəsində yetişib, dünyagörüşünü təkmilləşdirib.

Sovet dönənimdə həyat elə gətirmişdi ki, biz Arif müəllimlə bir neçə dəfə eyni təyyarədə Moskvaya uçmalı olduq. Bir qayda olaraq hava gəmisinin pilotları fərqli millətlərdən olurdular. Azərbaycanlıların onların arasında sayca az olması hər zaman Arif müəllimi çox qayğılandırırdı. Bu səbəbdən 1996-cı ildən Milli Aviasiya Akademiyasına rəhbərlik edən Arif müəllim bu sahədə köklü dəyişikliklərə şərait yaratdı. O, bacarıqlı təşkilatçı, istedadlı pedaqoq olduğunu da təsdiq etdi. Azərbaycan aviasiyasının bu günkü inkişafı birmənalı olaraq akademik Arif Paşayevin adı ilə bağlıdır. Hazırda azərbaycanlı pilotlar ən müasir təyyarələri idarə edir və dünyanın bütün qitələrinə sərnişin və yük daşıyırlar. Tarixi baxımdan çox qısa bir müddətdə belə nəticənin əldə edilməsi akademik, mühəndis və idarəçi kimi Arif Paşayevin yüksək istedad və bacarığının bariz göstəricisidir.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru,***
***akademik Urxan Ələkbərov.***

# THE CREATİON OF THE JUDİCİAL SYSTEM İN AZERBAİJAN

Members of the village community had the right to use their water share as they wished. These villagers, who were considered the full owners of the water share, were completely free to sell and forgive it.

The use of collectively owned irrigation facilities was also regulated by Sharia law. If the artificial means of irrigation was built at the expense of the total funds and labor of the community members, then the water share of each participant was determined in accordance with the funds and labor expended by him/her. The rules for the use of water by individuals were decided by lot.

When it was not possible to use water on a rotating basis, the person in charge of irrigation in the administrative area intervened and resolved the dispute as follows. Holes of the same size were drilled in the wide board and fastened to the ditch in the opposite direction of the water flow. The number of holes drilled in the board corresponded to the participants' share of water. If one of the participants had half of the water of the ditch, the second 1/3, and the third 1/6, six holes were drilled in the board. The water flowing through three, or half of these holes of the ditch flowed to the area of the first participant, the water flowing from two, or more precisely 1/3 of the second participant, and the water flowing from one of the holes, or rather 1/6, flowed to the area of the third participant [79, p.152].



The distribution of irrigation water in each khanate was controlled by a mirab appointed by the khan. The duty of the juvars subordinated to the mirabs was to distribute the water fairly among the farmers in the individual villages. Although the mirabs and juvars were appointed to their positions by the khan, they received their salaries from the population in cash and in kind.

Judicial system. As in the early Middle Ages, so during the khanate period, the judicial system was based on Sharia law and legalized customs. Except for some local features, in most khanates of Azerbaijan, the judicial system consisted of several stages depending on the importance and scale of the crimes under investigation. In the khanates located in the southern regions of Azerbaijan, the state laws of Iran were more widely applied. In the khanates located in the southern regions of Azerbaijan, the state laws of Iran were more widely applied. Thus, the court cases were considered in two instances - Sharia (mahkamah-eSharia) and art courts. In addition to criminal cases, or cases related to the representative of the highest class, religious courts considered

family-related divorces and inheritance cases. Khan often did not go against the decisions of religious courts. On the contrary, in order to increase his prestige among religious figures and to show his sympathy for religion, he confirmed their decisions [41, pp. 21-24].





Often, peasants and artisans who could not pay bribes were victims of injustice. In the second half of the 18th century, Abbat de la Port, the French traveler, who visited the southern regions of Azerbaijan, wrote: “All these courts are serious only for the poor. As in Europe, the judgment of money is great also in Iran (southern khanates of Azerbaijan - A.). The luster of this metal silences the law, close the eye of the court of justice, and the government renounces its rights. Therefore, the rich criminal holds his head high, while the poor “culprit” bears all the torments of punishment for his poverty and “crime” [58, p. 270].

In all khanates, the supreme judicial power belonged to the khan, who was the absolute ruler within his khanate. According to one of the contemporaries, the khan could punish, forgive, or reward any person without reckoning with anyone. Khan’s courts usually dealt with crimes of state importance. Such crimes included treason, desertion from the military, extensive damage to the property of the khan and his relatives, and so on.

There was no practice in the entire judicial system, including in the khan’s courts, to register complaints and applications. After listening to the parties, the khan, who presided over the court processes as an absolute judge, could make a decision on his own. He addressed high-ranking clergymen on only very controversial issues. The death penalty was often imposed for treason and desertion. Due to the theft of the khan’s property, the culprit’s hands, arms, and nose were often cut off.

Despite all these, the shah and the prince were not satisfied with all the khans. Sometimes the activities of the khans did not satisfy the Iranian government. This issue was more noticeable in the Nahchivan khanate. The Iranian government, which did not trust the Nahchivan khans, often appointed two feudal lords from the Kangarli tribe to govern the khanate. One of them was the main figure who governed the economy of the khanate, and the other oversaw the laws of the khanate, was considered the head of the tribe and the army. One of the feudal lords was appointed by the shah to rule the khanate and was considered the main ruler. The other was considered the chief (vakil) of the tribes and the representative of the Kangarli tribe. At the beginning of the XIX century, the main ruler of Nahchivan was Kalbaly khan, and the chief of the tribe was Lutfali Sultan [11, pp.22-23].

Sharia courts were more widespread in the khanates of Azerbaijan. Such courts, composed of several high-ranking religious figures, were presided over by Sheikh-ul-Islam Qazi or Akhund. No registration was made in these courts either. The plaintiff, defendant and witnesses were interrogated in turn in court. In the absence of a witness, the parties had to swear by the Qur’an to prove that they were right.

At the end of the interrogation, the members of the court consulted with each other and made their judgments in accordance with the rules of Sharia.

When the explanation of the crime was not answered in accordance with the rules of Sharia, the practice of sentencing based on local customs was widespread. Depending on the gravity of the crime, the methods of punishment, such as throwing a criminal from a high tower, cutting off his/her head, nose and ears were widespread among the applications of sharia courts.

Those found guilty of causing damage to property were not only forced to pay damages but were also sentenced to flogging.

The rule that a person convicted of murder should be handed over to the relatives of the murdered was also spread. In this case, the relatives of the murdered had the right to kill the murderer or to receive a certain amount of money, such as the price of blood.

Artisan organizations - esnaf, created in large cities and uniting artisans of the same profession, also usually had their own courts. As a rule, the masters presided the artisan courts. Disputes and quarrels between artisans were often settled in these courts. A person who was dissatisfied with the verdict of the artisan court had the right to appeal to a sharia court.

***Rashid Rzayev***
*Doctor of Philosophy in Law, Honorary Professor of Philosophy at the International Academy of Ecoenergy.*

# “BİZİM MƏNƏVİ MƏHSULUMUZ TƏLƏBƏDİR. TƏLƏBƏYƏ BÖYÜK HÖRMƏT, İZZƏT VƏ KÖMƏK BİZİM BORCUMUZDUR”.

**Akademik Arif Mir Cəlal oğlu Paşayev.**




Həyatdan aldığımız təcrübəyə əsaslanaraq demək olar ki, yaradıcı insanlar başqalarından dünya baxışları, fikirləri, duyğuları və intelekti ilə seçilirlər. Belə insanların sırasına ələxsus ictimai xadimləri, alimləri və incəsənət xadimlərini qeyd etmək olar. Alimlər xalqın sevimlisinə çevrilirlər ki, böyük elmi xidmətlərlə kamil şəxsiyyəti, dünyəviliklə milliliyi öz simasında uğurla təcəssüm etdirmiş olsunlar. Akademik Arif Paşayev məhz belə ziyalılardandır. Ciddi araşdırmaları ilə bir çox xarici ölkələrdə Azərbaycan elminə başucalığı gətirən, təcrübəli, yüksək səriştəli elm və təhsil təşkilatçısı kimi bu sahələrin inkişafına yeni-yeni töhfələr verən, zəngin mənəviyyatdan və dərin vətənpərvərlikdən yoğrulan ictimai fəaliyyəti ilə xalqın hüdudsuz sevgisini qazanan müdrik insandır.

Xalqımızın görkəmli ziyalısı, XX əsr Azərbaycan ədəbiyyatının və elminin böyük nümayəndəsi Mir Cəlal Paşayevin ailəsində dünyaya gəlmişdir. Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında əvəzedilməz xidmətlər göstərmiş bir alim və istedadlı yazıçı olmaqla yanaşı, eyni zamanda yüksək mənəvi-əxlaqi dəyərlər daşıyıcısı olan bir şəxsiyyət olmuşdur. O, öz həyatını Azərbaycan elminə, yeni nəslin hərtərəfli şəxsiyyət kimi yetişməsinə həsr edərək həmin ocağın ən nəcib xüsusiyyətlərini - humanistliyi, həssaslığı, dərin analitik təfəkkürü, qayğıkeşliyi estafet kimi qəbul etmiş və ehtiramla yaşatmışdır. Fəaliyyətinin əsas prioritetlərini elm, təhsil və yüksək mənəvi dəyərlərə sadiqlik təşkil edir. Müstəqil dövlətimizin siyasi və ictimai həyatında, elm və təhsildə təkrarolunmaz söz sahibi olan bu nəslin nümayəndələri Mir Cəlal müəllimin həmin fikrinin ifadə etdiyi mənanın sərhədlərini ailədən Azərbaycan sərhədlərinə qədər genişləndirir, illər keçdikcə onu həqiqətə çevirirlər.

Akademik Arif Paşayevin həyat bioqrafiyası olduqca çoxşaxəli və zəngindir. Həyatının əsas mərhələsini milli aviasiyanın təşəkkülü və inkişafı ilə bağlayan akademik 1996-cı ildən Milli Aviasiya Akademiyasına (MAA) rəhbərlik edərək bu sahədə də böyük xidmətlər göstərmiş, aviasiyamız üçün çox vacib olan milli kadrların - təyyarəçilər, mühəndislər, ümumən 16 ixtisas üzrə mütəxəssislərin yetişdirilməsinə nail olmuşdur. Milli Aviasiya Akademiyası beynəlxalq səviyyədə çoxsaylı təhsil və elm müəssisələri ilə əməkdaşlıq edir. Bu siyahıya Moskva Dövlət Universiteti, Moskva Dövlət Texniki Universiteti, Sankt-Peterburq Mülki Aviasiya Akademiyası, İstanbul Texniki Universiteti, Moskva Dövlət Mülki Aviasiya Texniki Universiteti, Baltik Dövlət Texniki Universiteti, Moskva Aviasiya Texnoloji İnstitutu, Moskva Aviasiya İnstitutu, Ukrayna Milli Aviasiya Universiteti və başqaları daxildir. Akademiyanı təhsilin və elmi-tədqiqat işlərinin səviyyəsinə görə də dünya standartlarına cavab verən ali təhsil ocağına çevrilmişdir. Akademik Arif Paşayevin rəhbərliyi dövründə MAA-da müasir standartlara uyğun tələbə şəhərciyi, tədris korpusları, təlim-trenajor və idman kompleksləri, tələbə yataqxanaları, laboratoriyalar, kitabxana, Aviasiya personalının hazırlıq Mərkəzi, Aviasiya Elmi-Tədqiqat İnstitutu, Xüsusi Konstruktor Bürosu, təcrübə-sınaq istehsalat bazası, tennis kortu, futbol, voleybol və basketbol meydançaları tikilib istifadəyə verilmişdir.

Sadaladıqca ardıcıllığı bitməyən görkəmli ziyalı, akademik Arif Mir Cəlal öğlunun Azərbaycanın gənclinə verdiyi dəyər və gənclərin elmlənməsində müstəsna rol oynaması bir azərbaycanlı olaraq mənim üçün fəxarət hissi ilə qəbul etdiyim bir haldır.

**Sevinirəm ki, bu gün Vətənimin Arif müəllim kimi ziyalısı və müdrik ağsaqqalı var.**

***İctimai siyasi xadim Bayram Əsəd oğlu Səfərov***

# VƏTƏNİMİN FƏXRİ VƏ MƏNƏVİ SƏRVƏTİ.



Arif Paşayev elə bir şəxsiyyətdir ki, onun haqqında danışmaq qürurvericidir. Çünki O, millətini layiqincə təmsil edərək onun dəyərli sərvətinə çevrilməyi bacarmışdır. Arif müəllim görkəmli yazıçı,ədəbiyyat tariximizdə dərin iz qoymuş ədiblərimizdən olan Mir Cəlal ailəsində doğulub böyümüşdür. Bu faktın özü də bir xoşbəxtlikdir. Lakin çətinliyi, məsuliyyəti böyükdür. Ona görə də düşünürəm ki, Arif müəllimin həyat məsuliyyəti nə qədər böyük və çiyinlərinə düşən yükün nə qədər ağır və məsuliyyətli olduğnu deməyə ehtiyac yoxdur. Öz fəaliyyətilə bu böyük işin öhtəsindən layiqincə gələrək Arif müəllim elm sahəsindəki ixtira və icadları ilə tək ailəsinin deyil, bütün Azərbaycanın fəxrinə və mənəvi sərvətinə çevrilməyi bacardı.

Arif müəllim səmərəli elmi və elmi-təşkilatı işlə yanaşı, olduqca faydalı pedaqoji fəaliyyətlə də məşğuldur. Uzun müddətdir ki, rektoru olduğu Milli Aviasiya Akademiyası respublikamızın qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilmiş, burada tədris prosesi və elmi-tədqiqat işləri yüksək səviyyədə təşkil olunmuş, yeni müasir kafedra və ixtisaslar açılmışdır. Bütün bunların nəticəsində Akademiya Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya ali təhsil müəssisəsi" sertifikatına layiq görülmüş və Beynəlxalq Mülki Aviasiya Təşkilatının ali təhsil müəssisələrinin siyahısına daxil edilmişdir. Müstəqil Azərbaycan üçün son dərəcə vacib mütəxəssislər hazırlayan Milli Aviasiya Akademiyasında təhsilin səviyyəsinin yüksəldilməsi üçün onun şəxsi töhvəsi, kollektivdə sağlam elmi-pedaqoji mühitin yaradılması və gündəlik qayğısı, yüksək ixtisaslı yetişdirilməsinə göstərdiyi diqqət qazanılan nailiyyətlərin əsasında duran əsas amillərdəndir. Rəhbərlik etdiyi akademiyanın nəzdində yaratdığı Elmi-Tədqiqat Aviasiya İnstitutunda Xüsusi Konstruktor Bürosunu və Təcrübi-Sınaq Bölməsini özündə birləşdirən Elmi-İstehsalat Birliyi aviasiya sahəsində ən yüksək səviyyədə tədqiqatlar aparmağa imkan verir. Bu da elmi nəticələrin tətbiqini sürətləndirməyə əlverişli şərait yaradır. Həyatını elmə bağlayaraq bu yola sadiq qalan, elmə sədaqətlə xidmət edən alim fədai bir şəxsiyyətə çevrilmişdir Arif müəllim. Təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqlarda onu görkəmli alim, təşəbbüskar təşkilatçı, başlıcası isə qayğıkeş bir insan kimi tanıyırlar. Onun nadir iş qabiliyyəti, yaradıcılıq enerjisi və fəal vətəndaş mövqeyi müstəqil Azərbaycan vətəndaşları üçün örnəkdir.

Fəxr edirəm ki, bu gün mən müstəqil, azad, demokratik və zəfər qələbəli Azərbaycanın vətəndaşıyam. Vətənim təbii və mənəvi sərvətləri ilə bütün dünyada tanınır. Qürur duyuram ki, Vətənimin Rafiq Əliyev, Xudu Məmmədov, Arif Paşayev, Kərim Kərimov, Lütfi Zadə, Yusif Məmmədəliyev kimi dahi şəxsiyyətləri vardır.

***Ədalət Cəlal oğlu Muradov***
***İqtisad elmləri doktoru, Professor,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru***

# VƏTƏNDAŞLIQ, VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİ İLƏ YAŞAYIB-YARADAN XEYİRXAH ŞƏXSİYYƏT...




Çox sevindirici haldır ki, qədim və zəngin ənənələrə malik Azərbaycan elmində tarixdə öz silinməz izini qoyan alim-şəxsiyyətlər kifayət qədərdir. Adlarını böyük qürur hissi ilə andığımız filosof, astronom, tarixçi, riyaziyyatçı, ilahiyyatçı, hüquqşünas və alim Nəsrəddin Tusi, kimyaçı alim, kimya elmləri doktoru, professor Yusif Məmmədəliyev, süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, Kaliforniya Berkli Universitetinin ömürlük professoru seçilmiş yeganə şəxs, alim LütfiZadə və sadalamadığım bir çox dahi şəxsiyyətlər və elm xadimlərinin Azərbaycan elmində müstəsna xidmətləri olmuşdur. Bu insanlar və onların elm üçün qoyduğu hər bir iş dəyərli təbii sərvətdir.

Azərbaycan elmi üçün ən parlaq dövrlərdən hesab olunan XX əsrdə fizika, texnika və aerokosmika elminin inkişafında müstəsna rol oynamış, Respublikamızda elmin, təhsilin təşkilində xüsusi xidmətlər göstərmiş görkəmli alim, bacarıqlı elm və təhsil təşkilatçısı, fəal ictimai xadim akademik Arif Mir Cəlal oğlu Paşayevin adı xüsusi mövqeyə malik olduğu göz önündədir.

Arif Paşayevin elmi- tədqiqat işlərinin nəticələri bir sıra xarici ölkələrin nüfuzlu elmi nəşrlərində dərc edilmişdir. O, müxtəlif elektromaqnit sahələrinin keçirici mühitlə qarşılıqlı təsirinin tədqiqi nəticəsində maşınqayırma məmulatlarına cərəyan burulğanları ilə nəzarət üçün yeni üsullar və qurğular yaratmışdır. Dəqiq, inteqral miniatür çevricilərin, temperatur, təyziqə, nəmliyə, gücə, təcilə, aşınmaya və titrəyişə həssas elementlərin yaradılması sahəsində də Arif Paşayev mühüm nəticələr əldə etmişdir. Bu elementlər gəmiqayırmada, neftmaşınqayırmada, müdafiə, tibb sənayelərində və digər sahələrdə geniş tətbiq edilir. Bu o deməkdir ki, sənayemizim hər bir sahəsində Arif müəllimin izi vardır. Onun ixtira və kəşfləri elmimizin inkişafında misilsiz rola malikdir və onların faydaları haqqında yazdıqca yazmaq olar.

**Mənim üçün Arif müəllim vətəndaşlıq, vətənpərvərlik hissləri ilə yaşayıb-yaradan, ictimai işlərdə yorulmadan əmək sərf edən, gənc nəslin təlim-tərbiyəsinə, onların yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmalarına xüsusi diqqət göstərən qayğıkeş rəhbər, səmimi insan və xeyirxah şəxsiyyətdir.**

Bir daha fürsətdən istıfadə edərək Arif Paşayevə möhkəm cansağlığı, uzun ömür, elmin və təhsilin inkişaf etdirilməsi yollarında daha böyük uğurlar arzulayıram!

***"Dədə Qorqud" Milli Fondunun vitse-prezidenti və İdarə Heyətinin üzvü, incəsənət xadimi, tarzən Rüfət Həsənov***

## Azərbaycan Respublikası Milli Aviasiya Akademiyasının Rektoru, Akademik, Ukrayna Milli Aviasiya Universitetinin və məzunu olduğu Odessa Milli Rabitə Akademiyasının Fəxri doktoru, N.E Jukovskiy adına Xarkov Milli Aerokosmik Universitetin fəxri professoru, Ukrayna Azərbaycan Diasporasının fəxri üzvü,

# ARİF MİR CƏLAL OĞLU PAŞAYEVƏ

***Çox hörmətli və əziz Arif müəllim!***

İlk növbədə Sizi "Ukrayna Azərbaycanlıları alimlər şurası" ictimai təşkilatının üzvləri və şəxsən öz adımdan salamlayaraq söz ilə ifadələri qeyri mümkün olan məhəbbətimizlə yanaşı bu çox əziz gün Yubileyiniz münasibəti ilə xoş arzu və istəklərə söykənən təbriklərimizi yetirməyi özümüzə böyük şərəf bilirik.

Təşkilatın üzvləri ümummilli liderimiz Heydər Əliyevin irəli sürmüş olduğu Azərbaycançılıq ideyasının həyata keçirilməsi, elmi, mənəvi-mədəni dəyərlərimizin inkişafı sahəsində yekdillikləri daima nəzərə çarpmaqdadır və bu sahədə Ukraynada təhsil almış həmvətənlimiz kimi Sizin də dəstəyiniz danılmazdır.

Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dövlətçiliyimizin daha da möhkəmlənməsinə xidmət istiqamətində Azərbaycan elmi qarşısında irəli sürdükləri tövsiyyələri, Dədə Qorqud Milli Fondu dəyərlərini həyata keçirməyin addımlarından biri kimi misilsiz inama səfərbərliyi də Sizin Yubileyinizə mühüm töhfə hesab edirik.

***Çox hörmətli Arif müəllim,*** Sizi bir daha Doğum Gününüz münasibəti ilə təbrikimizlə yanaşı əmin edirik ki, imkanlarımız daxilində öz vəzifələrimizi Sizlərlə bölüşməklə Azərbaycan elminin daha da uğurlu addımları üçün var qüvvəmizi, elmi potensialımızı sərf edəcəyik.

Dərin hörmət və məhəbbətlə,

**Ukrayna Azərbaycanlıları alimlər şurası"**
**ictimai təşkilatı İdarə heyyətinin sədri, diplomat,**
**Hüquq elmləri doktoru, professor,**
**Ukraynanın əməkdar təhsil işçisi,**
**Ukrayna MEA Ali Təhsil Akademiyasının**
**Akademiki, "Azərbaycan Dünyası" beynəlxalq jurnalının**
**Ukraynadakı nümayəndəsi Arif Quliyev**





# DÜNYA ŞÖHRƏTLİ ALİM, MAHİR TƏHSİL QURUCUSU, YETKİN VƏTƏNDAŞ



İnsan tarixən yüksəlişə, mükəmməlliyə, həyatını gözəlləşdirməyə, rifahını yaxşılaşdırmağa zehni güc olan biliklə, təcrübədə əldə edilmiş səmərəli üsullarla nail olub. Bu hikmətin mahiyyətini açıqlayan zəka dahilərindən birinin qeyd etdiyi kimi, elm inkişafın ön cəbhəsidir, mədəniyyət isə onun ictimai həyatda buraxdığı izdir.
Əntiq dövrün düşüncə nəhəngi Sokrat isə bildirib ki, elm adlı bu möcüzəli mənəvi silah yalnız xoşniyyətli insanların əlində olanda fayda verir. Çünki xoşməramlı alimlər, xeyirxah mədəniyyət xadimləri öz elmi, mütərəqqi baxışları ilə daha üstün, əvvəlkindən də rahat bir cəmiyyət yarada biliblər. Tarixdə belə yüksəlişə intibah deyilib. Azərbaycan elminin və onun hazırlıq bazası olan milli təhsilimizin inkişafında böyük xidmətləri olan, ziyalılıq əfsanəsinə, vətəndaşlıq etalonuna çevrilmiş akademik Arif Paşayev məhz belə bir intibahı yaradan aydınlarımızdandır. Müstəqilliyimizin xalqımıza bəxş etdiyi tarixi yeniliklərdən sayılan ali aviasiya təhsilinin formalaşdırılması, kosmik elmin yeni yüksək mərhələyə yönləndirilməsi isə Arif müəllimin müstəsna xidmətləridir. Təkcə ölkəmizdə deyil, qlobal səviyyədə fundamental alim olaraq qəbul və təqdir edilən Arif Paşayev həm də Azərbaycan elmini dünya miqyasında təmsil edir və layiqincə tanıdır.
Elm və təhsil fədaisi Arif Paşayevin həyatının böyük bir dövrü milli aviasiyanın təşəkkülü və inkişafı, bu sahənin kadr hazırlığının və elmi təminatının yaradılması ilə bağlıdır. Milli Aviasiya Akademiyasına uzun illər uğurla rəhbərlik edən akademik tədris prosesinin, elmi-metodiki işlərin yüksək səviyyədə təşkil olunmasının, bir sıra kafedraların açılmasının və yeni ixtisasların tədrisinin başlanğıcını təşəbbüskarlıq və məharətlə həyata keçirib. Bu səmərəli fəaliyyətin nəticəsi olaraq Azərbaycan Milli Aviasiyası dünyanın öncül hava nəqliyyatı qurumlarından birinə çevrilib. Bu gün mülki aviasiyanı bütün istiqamətlər üzrə beynəlxalq tələblərə cavab verən milli kadrlarla təmin etməkdə Milli Aviasia Akademiyasının rolu və xidməti misilsizdir. Bu nüfuzlu təhsil və elm ocağının fəaliyyətinin əsas istiqamətlərindən biri də hazırkı dövr üçün zəruri müdafiə və hücum silahı olan pilotsuz uçuş aparatlarının, gizli düşmən sayılan minaların axtarılması və zərərsizləşdirilməsi üzrə radioidarəolunan robotların, radiotexniki təminat obyektlərinin texniki vəziyyətinə avtomatlaşdırılmış nəzarət sistemlərinin yaradılmasıdır. İftixarla xatırladaq ki, Qarabağın azadlığı uğrunda Vətən müharibəsində qələbənin əldə edilməsində Arif Paşayevin rəhbərliyi ilə hazırlanmış bu silah və sistem ordu cəbbəxanasında önəmli yer almışdır.
Milli Aviasiya Akademiyasında Azərbaycanda analoqu olmayan, dünya standartları səviyyəsində ali təhsil şəhərciyi salınması rektor Arif Paşayevi ölkəmizdə və dünyada modern təhsil qurucusu kimi tanıtmışdır. Təhsil sahəsində davamlı islahatlar, kadr hazırlığı səviyyəsinin yüksəldilməsi, akademiyada və mülki aviasiyada sağlam elmi-pedaqoji və xidmət mühitin yaradılması Arif Paşayevin nüfuzlu alim imicinə həm də qurucu ziyalı məşhurluğu əlavə etmişdir. Geniş elmi-praktiki, elmi-təşkilati, pedaqoji fəaliyyəti ilə yanaşı, Azərbaycanda müasir aviasiya təhsilinin inkişafına gərgin əmək sərf etmiş, gənc aviatorların vətənpərvərlik ruhunda tərbiyəsini daim diqqətdə saxlamış, bu işdə onun silahdaşlarına çevrilən insanlara yüksək dəyər vermiş Arif müəllim bu nümunəsi ilə milli təhsilimizinin digər sahələrinin də yenilənməsinə, uğurlar qazanmasına güclü stimul yaratmışdır. Arif Paşayevin çoxillik elmi-pedaqoji və təşkilatçılıq təcrübəsi, cəmiyyətdə baş verən proseslərə məsuliyyətli, yetkin münasibəti ölkədə yeni tipli ziyalılıq nümunəsi sayılır. Bu səbəbdəndir ki, onu təkcə rəhbərlik etdiyi akademiyada müəllim və tələbələr deyil, cəmiyyətin bütün dairələri yaxşı tanıyır və sevirlər.
Akademik Arif Paşayevin də bir pedaqoq və alim kimi çoxsaylı yetirmələri, ardıcılları ilə öyünməyə tam haqqı var. Çünki akademiyanı belə bir yüksək səviyyəyə çatması, başqa ali məktəblər üçün nümunəyə çevrilməsi ölkəmizdə yeni bir mərhələ təşkil edən milli və bəşəri intibaha samballı töhfələr verir. Həyata keçirilən davamlı və səmərəli işlərin nəticəsidir ki, Milli Aviasiya Akademiyası Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya ali təhsil müəssisəsi" sertifikatına layiq görülüb. Bu müasir aviasiya və kosmik axtarışlar mərkəzinin adı Beynəlxalq Mülki Aviasiya Təşkilatının ali təhsil müəssisələri siyahısına daxil edilib. Akademik Arif Paşayevin bu nailiyyətləri, təhsil sferasını inkişaf etdirən layihələri, Azərbaycan və dünya elmini zənginləşdirən araşdırmaları ölkəmizdə və beynəlxalq aləmdə qədirbilənliklə dəyərləndirilib və layiqincə qiymətləndirilib. Bütün bunlar milli elm və təhsilimizin şanlı salnaməsinin parlaq səhifələridir.

***Rəşad Mahmudov,***
***Tibb elmləri doktoru,***
***Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini***

Akademik Arif Paşayev, XX əsrin görkəmli alimi, yazıçı, pedaqoq Mircəlal Paşayev ocağında dünyaya gəlmişdir. Bu evdə dövrünün bir cox məşhur simaları tez-tez yığışar, ədəbi-elmi məclislər qurardılar. Belə bir mühitin ailənin dünya görüşünün formalaşmasında böyük rolu olmuşdur.

Dərin zəkaya malik olan Arif Paşayev pedaqoq, istedadlı təşkilatçı,böyük nüfuza malik rəhbər, dünya şöhrətli bir alimdir. O, elm dünyasında özünün dəsti-xətti ilə seçilən, xalqını, vətənini, gəncliyi sevən, humanist, vətənpərvər, Azərbaycan elmini dünya səviyyəsində layiqincə təmsil edən bir şəxsiyyətdir.



# BİZİM MƏNƏVİ QİDAMIZ – TƏLƏBƏ, BİZİM BORCUMUZ - TƏLƏBƏYƏ HÖRMƏTLƏ YANAŞMAQ, ŞƏRƏFLƏNDİRMƏK VƏ KÖMƏK GÖSTƏRMƏKDİR.

**(Arif Paşayev)**

Rəhbərlik etdiyi Milli Aviasiya Akademiyası tələbələrinə göstərdiyi qayğı bir baba qayğısıdır. Məhz onun qayğısının nəticəsidir ki, tələbələr elmə böyük maraq göstərir, bu da onların sabahın peşəkar mütəxəssisi, alimi kimi yetişməsinə səbəb olur.

Arif müəllim yetişdirmələrinin sabahına inanır, tələbələrinin yüksək elmi biliklərə yiyələnməsi üçün əlindən gələni əsirgəmir. Akademik Arif Paşayev əmindir ki, bu günün tələbələri gələcəyin alimi, müəllimidir. Onun tələbələrə göstərdiyi qayğı sonsuzdur, tələbələrinin də ona qarşı olan olan məhəbbəti və hörməti qarşılıqlıdır. A.PAŞAYEV övladları üçün qayğıkeş ata, nümunəvi ailə başçısı, nəvə və nəticələri üçün örnək babadır.

Paşayevlər nəsli Azərbaycan elminə görkəmli şəxsiyyətlər bəxş etmişdir. 90 illik ömrünün 65 ilini elmin inkişafına həsr etmiş, akademik ixtiralarından dünyanın bir çox ölkələrində istifadə edilir. Fizika-riyaziyyat elmləri doktoru, Akademik Arif Paşayev Azərbaycan elminə və milli aviasiyanın inkişafına böyük töhfələr verib və verəcəkdir. Azərbaycanda elmin, təhsilin inkişafında yüksək xidmətlərinə görə “Şöhrət”, “Şərəf”, “İstiqlal” ordenləri ilə təltif edilmişdir.

**Arif müəllimi 90 illik yubileyi münasibətilə təbrik edir, Azərbaycan elminin inkişafı naminə yorulmaz fəaliyyətində yeni uğurlar və həyatın ən şirin neməti olan can sağlığı arzulayırıq.**

***Dərin hörmətlə,***
***“Avshar“ KUKLA teatrının rəhbər, Mədəniyyət xadimi Xatirə AVŞAR (Tallinn, Estoniya)***



# 90-летие академика Арифа Пашаева

Светлый юбилей великого ученого и выдающегося деятеля в области науки и образования, академика Арифа Пашаева, ознаменовался национальным и мировым уважением к его вкладу в сферу авиайционой инженерии.

# Блестящие 90: юбилей академика Арифа Пашаева и его научное наследие

**90 лет** – это значимый этап в жизни человека, отмеченный богатым опытом, достижениями и мудростью. Для академика Пашаева эти годы стали временем активной научной работы, просвещения и поддержки молодых талантов.



*На мероприятии CanSat Azerbaijan,2018*

Академик Ариф Пашаев известен своими значительными вкладами в развитие физики и математики. Его исследования и открытия в области теоретической физики и авиастроения получили признание и уважение как в Азербайджане так и за его пределами. Он прославился своими работами в области диагностики и мониторинга авиационных газотурбинных двигателей и акустико-оптических систем, что сделало его одним из ведущих ученых в своей сфере. Ариф Пашаев — автор более 300 опубликованных научных работ, 35 авторских свидетельств и патентов.

Однако академик Пашаев также известен своим вкладом в развитие образования и науки. Будучи активным пропагандистом знаний и науки, он посвятил много сил и времени в обучение и воспитание новых поколений ученых и интеллектуалов. Под его чутким руководством было подготовлено 12 кандидатов, а так же 3 доктора наук.

Особенно стоит отметить его поддержку молодых ученых и студентов. Академик Пашаев всегда был сторонником и поощрителем талантливых молодых людей, предоставляя им возможности для самореализации и развития своих научных интересов.

Его вклад в создание и развитие образовательных проектов и програм в Международной инженерной, транспортной и экоэнергетической академиях оказал огромное влияние на формирование интеллектуального потенциала молодежи Азербайджана.

Несомненно, 90-летний юбилей академика Арифа Пашаева – это повод для гордости для всего научного и образовательного сообщества Азербайджана.



*Во время награждения учасников TEKNOFEST,2022*



***90-летие академика Арифа Пашаева***
***Материал подготовил Шахин Гулиев***

# KAMİLLİK VƏ MƏNƏVİYYAT ZİRVƏSİ



Mən bu böyük insanı, fenomenal şəxsiyyəti özümə mənəvi ata hesab edirəm. Taleyimə minnətdaram ki, 2001-ci ildən 2020-ci ilə qədər iyirmi ilə yaxın bir müddət ərzində Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayevin köməkçisi və müavini vəzifələrində çalışmışam. Fərəhləndirici haldır ki, Milli Aviasiya Akademiyası təhsilin keyfiyyətinə, maddi-texniki, tədris-metodiki, laboratoriya-təcrübə bazasına görə nəinki keçmiş Sovetlər Birliyində, həm də Avropada və dünyada ən müasir standartlara cavab verən, ölkəmizin təhsil sistemində özünəməxsus yeri olan bir ali təhsil ocağıdır. Bu gün haqlı olaraq ictimaiyyətimiz ölkəmizdə belə bir nümunəvi təhsil müəssisəsinin olması ilə iftixar edir. Lakin bir çoxumuz bu əvəzsiz elm və təhsil məbədinin hansı böyük, məhsuldar əməyin, dühа və əzmin hesabına yoxdan var olunduğunu bilmir. Mən böyük qürur hissi duyuram ki, akademik Arif Paşayevin dövlətimizə, xalqımıza bəxş etdiyi bu möhtəşəm əsərin illərlə addım-addım, kərpic-kərpic necə yaradıldığının şahidi və iştirakçısı olmuşam. Fəxr edirəm ki, Azərbaycan elminin, təhsilinin inkişafına misilsiz töhfələr verən bu böyük şəxsiyyətin düşüncə və əməllərinin həyata keçirilməsində iki onillik ərzində mənim də müəyyən əməyim olub və mən öz fəaliyyətimlə onun etimadını, etibarını, rəğbətini qazanmağa səy göstərmişəm. Mən onun rəhbərliyi altında fəaliyyət göstərdiyim ilk illərdən bu görkəmli alimin, elm və təhsil təşkilatçısının, ictimai xadimin, humanistlik və alicənablıq zirvəsində dayanan böyük şəxsiyyətin hər addımını dərindən öyrənib öz həyat və fəaliyyətimə tətbiq etməyə çalışmışam. O, Azərbaycanda mülki aviasiya sahəsində aviasiya elmi məktəbinin banisidir. Onun rəhbərliyi altında yüzlərlə yüksək elmi dərəcəli kadrlar yetişmişdir. Arif Paşayev mənim də namizədlik dissertasiyamın elmi rəhbəri, doktorluq dissertasiyamın isə elmi məsləhətçisi olmuşdur.

Mən Arif Paşayev məktəbinin bir yetirməsi kimi elmin pillələrində yüksəlişimə, əldə etdiyim bilik, bacarıq və təcrübəmə görə əbədi olaraq bu böyük insana, alimə, müəllimə borcluyam. Çox yaxşı dərk edirəm ki, bu borcu yalnız yenə də ondan nümunə götürərək vətənə, dövlətə, xalqa fədakar və təmənnasız xidmətimlə ödəyə bilərəm.

Arif Mir Cəlal oğlu Paşayev şəxsiyyəti, dühası, insanlığı etibarilə özü böyük bir məktəbdir. Onunla bir yerdə çiyin-çiyinə çalışan onlarla, yüzlərlə elm və təhsil sahəsinin adamları, yaradıldığı vaxtdan bu günə qədər Milli Aviasiya Akademiyasından məzun olan on minlərlə tələbə həyatlarının müəyyən dönəmlərində bu böyük insanla təmasda, fəaliyyət birliyində olub onun şəxsi keyfiyyətlərini həyat prinsipləri kimi özlərinə nümunə götürüblər. Bu gün ölkənin aviasiya sahəsində, eləcə də, cəmiyyət həyatının bir çox sahələrində çalışan Arif Paşayev məktəbinin davamçıları ondan əxz edilmiş yüksək şəxsi keyfiyyətlərin daşıyıcıları olaraq cəmiyyət, dövlət və bütün insanlıq üçün dəyərli və yararlı insan, elm və təhsil işçisi, ictimai xadim kimi yetişiblər.

Mən, qeyd etdiyim kimi, Arif Mir Cəlal oğlu Paşayevin köməkçisi və müavini vəzifəsində işlədiyim iyirmi ilə yaxın bir dövr ərzində bir rəhbər və şəxsiyyət kimi onun fəaliyyətində müşahidə etdiyim insanlara qayğı və xeyirxahlığı, alicənablıq xüsusiyyətlərini xüsusilə vurğulamaq istərdim. O, müxtəlif problemlərlə bağlı müraciət edən şəxslərə, tələbələrə, müəllimlərə, sadə işçilərə çox böyük diqqət və həssaslıqla yanaşır, onların problemlərinin həlli üçün əlindən gələni əsirgəmir. Bir çox elm, mədəniyyət, ədəbiyyat xadimlərimizin də dəfələrlə öz xatirələrində dərin hörmət və sevgi ilə qeyd etdikləri kimi bu xeyirxahlıq, humanizm, alicənablıq böyük yazıçımız Mir Cəlal Paşayevdən irs alınmış və ümumiyyətlə, Paşayevlər nəslinə xas olan səciyyəvi xüsusiyyətlərdəndir. Bu gün bütün xalqımız bu nəcib irsi xüsusiyyətlərin ifadəsini Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəxsində və fəaliyyətində bariz şəkildə görür.

Arif Mir Cəlal oğlu Paşayevin çatdığı dühа və kamillik zirvəsi bizim üçün əlçatmaz, daim düşüncə və fəaliyyətimizlə can atdığımız bir idealdır. Onun tələbələri, davamçıları olaraq bizə öyrətdiyi həyat prinsipləri ilə irəliləyir, bu dövlətə, xalqa layiq vətəndaş olmağa çalışırıq. Bəzən bu yolda zaman-zaman müəyyən nöqsanlara, səhvlərə yol veririk. Lakin o böyük qəlbli, geniş təfəkkürlü insan tarixdəki bütün yaradıcı, qurucu dahilərə xas olan xeyirxahlıq, alicənablıq və uzaqgörənliklə bizim yanlışlıqlarımızı öz mənəviyyatının böyüklüyündə əridib, bizə səhvlərimizi düzəltmək, dirçəlmək üçün imkan və zaman verir. Bu münasibətdən dərs çıxaran bizlər də yanlışlarımızı düzəldir, daha məsuliyyətli, prinsipial olur və bütün fədakarlığımızla onun inam və etibarını doğrultmağa çalışırıq.

Mən bu böyük insanın, dahi alimin, görkəmli ictimai xadimin doğum günü münasibətilə ölkənin bütün elm və təhsil ictimaiyyətini, mülki aviasiya işçilərini, eləcə də, bütün xalqımızı ürəkdən təbrik edir, qadir Allahdan ona cansağlığı, xoş əhval-ruhiyyə, dövlətimizin, vətənimizin inkişafı naminə yeni-yeni yaradıcılıq uğurları arzu edirəm.

***Ənvər Tapdıq oğlu Həzərxanov***

*Heydər Əliyev adına Hərbi İnstitutun kafedra müdiri,*
*texnika elmləri doktoru, professor,*
*Türk Dünyası Araşdırmaları*
*Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü*

**Epiloq əvəzi...**

*1934-cü ilin 15 fevral tarixi. Kiçik çillənin 15-ci günü. Soyuq şaxtalı bir gün idi. Evlərin pəncərələrində şüşələr də qırov bağlamışdı.*

*Həmin soyuqlu çillə günündə Mir-Cəlal Paşayevin ailəsində bir oğlan uşağı dünyaya göz açdı. Adını Arif qoydular. Mir-Cəlal Paşayev bu adı çoxdan seçmişdi, amma, bu barədə heç ömür-gün yoldaşına da bir söz deməmişdi. Axı adın insan həyatında çox mühüm rolu var.*

*O vaxt heç kim güman etməzdi ki, yeni doğulan bu körpə Azərbaycanın elm tarixində nələrə imza atacaq..*

# NURA QƏRQ OLAN ÖMÜR YOLU.



...Yenə də soyuqlu fevral günü, 2 fevral 2024-cü il gənclər günü. Məni gənclərlə görüşə dəvət etmişdilər.

Buzovnada 171 nömrəli avtobusa minəndən beynimdə danışacağım mövzular dolaşır, fikirlərimi cəmləməyə çalışırdım. Görüşlərdə, tədbirlərdə kağızsız danışmağı sevirəm. Öz fikirlərimi insanlara olduğu kimi çatdırmaq mənə daha xoş gəlir. Növbəti dayanacaqda avtobusa daxil olan bir dəstə gəncin səs-küyü məni fikir dünyamdan ayırdı. Milli Aviasiya Akademiyasının xüsusi formasında olan bu gənclərin söhbəti diqqətimi çəkdi. Ucaboylu gənc oğlan yanında olanlara belə bir təklif etdi:

*- Gəlin bütün qrupumuzun tələbələri arasında "Arif Paşayevin Azərbaycan elminə töhfələri" adlı hekayə müsabiqəsi elan edək. Hərə öz fikrini yazsın, sonra yaxşıların içindən ən yaxşısını seçib mükafatlandırma da edərik.*

Tələbələrin əksəriyyəti təklifi bəyənsə də, sarışın qız bu təkliflə razılaşmayıb dedi:

*- Arif müəllim Akademikdir, dünya şöhrətli alimdir, internet səhifələrində onun barəsində ətraflı məlumatlar var. Hamı məlumatları oradan götürüb yazacaq, hamıya məlum olanı yenidən yazmağa nə ehtiyac? Tələbələr Akademiyanın ərazisində tikilən tədris korpuslarından, idman kompleksindən, tələbə yataqxanasından, yəni hamının bildiyi həqiqətlərdən yazacaqlar. Bir də ki, vaxtımız lap azdır, bu gün fevral ayının 2-dir, cəmi on üç gün vaxtımız var. Arif Paşayevin ad günü 15 fevral tarixindədir. Bu adi yübiley deyil, 90 illik yubileydir. Gəlin Arif müəllimin yubileyinə tələbələrin iştirakı ilə təntənəli konsert proqramı hazırlayaq.*

Gənclər hərə öz təklifini irəli sürür, bir-birinin sözünü kəsib əziz müəllimlərini təbrik etmək üçün müxtəlif təkliflər edirdilər. Gənclərin bu yubiyev tədbirinə necə məhəbbətlə, sevgi ilə, Azərbaycanın görkəmli liminə ehtiramla yanaşması məni heyran etmişdi.

Arif Paşayevin 90 illik yubileyi ərəfəsində, onun elmi kəşfləri, dünya elminə verdiyi son dərəcə samballı ixtiraları, elmi monoqrafiyaları, Beynəlxalq Elm Mərkəzlərinin ona təqdim etdiyi mükafatlar, orden və medallar barədə geniş yazılar yazılacaq. Bu təbiidir.

"Azərbaycan Hava Yolları" Konserni Milli Aviasiya Akademiyasının rektoru Akademik Arif Paşayev barədə həmin Akademiyada təhsil alan bir dəstə gəncin- tələbələrin ictimai nəqliyyat vasitəsində belə öz müəllimləri barədə ürək dolusu danışması, onun yubiley tədbirinə hazırlıq görməsi təkcə mənim yox, avtobusda olan sərnişinlərin çoxunun diqqətini çəkmişdi.

Budur müəllim adına, müəllim zəhmətinə, müəllim saflığına verilən dəyər.

Bu günün tələbələri təhsil aldığı elm ocağının rəhbərinə, sevgi, məhəbbət bəsləyir, ondan nümunə götürürsə, deməк onlar gələcəkdə Azərbaycanın layiqli mütəxəsisləri olacaqlar.

(Onu da qeyd edim ki, gənclərin söhbətinə necə aludə olmuşdumsa, düşəcəyim dayanacaqdan xeyli uzağa getmişdim.)

Biz də öz növbəmişdə bütün qələm sahibləri adından Akademik Arif Paşayevin 90 illik yubileyini səmimi qəlbdən təbrik edirik. Arif müəllimə cansağlığı və daha böyük yubileylər keçirmək arzu edirik.

***Gülarə Munis. AYB və AJB üzvü.***



*Mən fəxr edirəm ki, xalqımızın Arif müəllim kimi ziyalısı və müdrik ağsaqqalı var. Arif Paşayev Azərbaycanın elmi və təhsil sahəsində dəyərli töhfələr vermiş, hörmətli alim və ictimai xadimdir. Onun fəaliyyəti Azərbaycan elminin inkişafında mühüm rol oynamışdır. Paşayev, əsasən, aerodinamika və kosmik texnologiyalar sahəsində aparıcı tədqiqatlarla tanınır. O, elmi karyerası boyunca bir çox elmi məqalələr, monoqrafiyalar və dərsliklər yazmış, gənc alimlərin yetişdirilməsində böyük əmək sərf etmişdir.*

*Arif Paşayevin elmi fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmır. O, beynəlxalq səviyyədə də tanınan bir alimdir və bir çox xarici universitetlərlə əməkdaşlıq etmişdir. Onun təşəbbüsü ilə Azərbaycanda bir çox innovativ elmi layihələr həyata keçirilmişdir ki, bu da ölkənin elm və təhsil sahəsində rəqabət qabiliyyətini artırmağa xidmət etmişdir.*

*Arif Paşayevin elmə olan töhfələri ona müxtəlif dövlət mükafatları və fəxri adlar qazandırmışdır. O, həmçinin Azərbaycanın tanınmış ictimai xadimi olaraq, ölkənin inkişafına yönəlmiş bir çox layihələrin təşəbbüskarı olmuşdur. Paşayevin peşəkar və şəxsi keyfiyyətləri, onun elmə, təhsilə və ictimaiyyətə verdiyi dəyər, onu həm Azərbaycan cəmiyyətində, həm də beynəlxalq aləmdə böyük nüfuza sahib bir şəxsiyyətə çevirmişdir.*

***Nazim Abbasov***





**Əzizimiz Arif müəllim,**

*Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev və birliyin doxsan bir min veteran üzvü adından Sizə olan dərin hörmət və ehtiramı ifadə etməkdən böyük qürur duyuram. Ölkəmizin elmində, təhsilində və ictimai həyatında Sizin göstərdiyiniz əvəzsiz xidmətlər hər birimiz üçün ilham mənbəyidir.*

*Elmin inkişafındakı mühüm rolunuzla, gənc nəslin təlim-tərbiyəsindəki böyük əməyinizlə və Azərbaycanın tərəqqisi yolunda göstərdiyiniz xidmətlərinizlə yalnız bir alim və müəllim kimi deyil, həm də bir vətəndaş olaraq ölkəmizə böyük töhfələr vermisiniz. Biz veteranlar, Sizin Vətənə olan sevginizi, yorulmaz fəaliyyətinizi və daim xalqımızın rifahı üçün göstərdiyiniz səyləri yüksək qiymətləndiririk. Sizi həm Azərbaycan elminin, həm də xalqımızın fəxri kimi görürük.Qazandığınız nailiyyətlər və əldə etdiyiniz uğurlar ölkəmizin gənc alimləri üçün örnəkdir.*

*Bu şərəfli yolunuzda Sizə uzun ömür, möhkəm cansağlığı, tükənməz enerji və yeni uğurlar arzulayırıq. Qoy, hər zaman həyatınız və fəaliyyətiniz xalqımızın xeyrinə xidmət etsin və elmin zirvələrində daha böyük uğurlarla yadda qalsın.*

**Ən səmimi arzularla,**

*Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, Səbail rayon Ağsaqqallar Şurasının sədr müavini, Qarabağ müharibəsi veteranı, əlillik statusundan imtina etmiş ehtiyatda olan zabit **Altay Bababşov.***

# AKADEMİK ARİF PAŞAYEV – YÜKSƏK MƏDƏNİYYƏTİN ZİRVƏSİNDƏ



Elmin inkişaf tarixi belə bir həqiqətə şahidlik edir ki, onun müxtəlif mərhələlərində əldə olunan bütün uğur və nailiyyətlər bilavasitə yüksək mənəvi-əxlaqi keyfiyyətləri və dərin intellekti özündə birləşdirən şəxsiyyət fenomeni ilə bağlıdır. Sevindirici haldır ki, qədim və çox zəngin elmi ənənələrə malik olan Azərbaycan elmində, xüsusən də onun ən parlaq dövrü hesab olunan XX-XXI əsrlərdə bu cür alim şəxsiyyətlər çoxdur. Onların sırasında respublikamızda elmin inkişafında, təhsilin təşkilində müstəsna rol oynamış, fəal ictimai xadim akademik Arif Paşayevin adı xüsusi mövqeyə malikdir.

Akademik Arif Paşayev XX əsrdə tanınmış yazıçı, ədəbiyyatşünas alim, pedaqoq Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açmışdır. Arif Paşayev Mir Cəlal Paşayevin övladı olaraq onun açdığı cığır ilə davam etmiş və bu ailənin mənəvi ənənələrini şərəflə davam etdirmişdir.

Mən rəhbəri Jalə Mirsahab olan "Tələbə cəmiyyəti"nin sədri Əfsanə İsmayılova. Mən belə fikirləşirəm ki, hər bir gənc, hər bir tələbə özünü bir şəxsiyyət kimi formalaşdırmaq istəyirsə, mənəvi dəyərlərinə və ənənələrinə sadiq qalan, həyatını elmə və təhsilin təşkilinə həsr edən dəyərli şəxsiyyətləri özünə nümunə götürməlidir. Mən ədəbiyyatla və mədəniyyətlə daim maraqlanmışam Ədəbiyyatımızda olan hər əsəri bir həyat kimi qəbul etmişəm. Ədəbyyatımıza, mədəniyyətimizə daim sadiq qalmağa, onu qoruyacağıma və əlimdən gəldiyi qədər sədri olduğum "Tələbə cəmiyyəti"ndə üzv olan gənclərə aşılayacağıma söz vermişəm. Bu yolda Arif Paşayev nümunə götürdüyüm şəxsiyyətlərdən birincisi olub.

Bu yazını mədəniyyətin zirvəsi olan Arif Paşayevin 90 illik yubileyinə həsr edirəm. Ad günü insan ömrünün unudulmaz anlarından biri olmaqla yanaşı, həm də bir həyat hesabatıdır. Bu günlərdə arxada qalan illər kitab kimi vərəqlənir, "mən özüm üçün nə etmişəm?", "mən Vətənim üçün nə etmişəm?" suallarına cavab axtarılır. Arif müəllim nəinki bizim üçün həm də gələcək nəsillər üçün silinməz irs yaradıb. Mənə görə Arif müəllimin həyatı və elm üçün etdikləri klassik bir romandır. Mən də bir tələbə olaraq digər tələbələrə tövsiyyə etmək istəyirəm ki, Arif müəllimin həyatından özlərinə bir çıraq yaratsınlar. Əminliklə deyə bilərəm ki, bu çıraq həyatın qaranlıq yollarında sizlərə işıq olacaq.

***Əfasanə İsmayılova***

**Doğum günü münasibətilə Arif müəllimi Tələbə cəmiyyətinin kollektivi adından təbrik edir, Azərbaycan elminin inkişafı yolunda yorulmaz fəaliyyətində yeni uğurlar və tükənməz həyat enerjisi arzulayırıq.**

# YUBİLEY YAŞINIZ MÜBARƏK



*Elm-işıqdır, Allah nurundan yaranıb. Əsl alimlər bu nurun daşıyıcıları bəşərin qəlbinə, ruhuna, idrakına işıq paylayan fəzilət sahibləridirlər.*

*Bir insanın qiyməti onun elmi, biliyi qədərdir.*

*Görkəmli alim fizika-riyaziyyat elmləri doktoru, Əməkdar elm xadimi, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif müəllim Paşayev Azərbaycan elminə və təhsilinə yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə töhfələr verən, zəngin, məhsuldar ömür yaşayır. Azərbaycan elmini dünya səviyyəsində layiqincə təmsil edən Arif müəllim xeyirxah, mehriban, təvazökar, hümanist insandır. Onun müdrikliyi və vətənpərvərliyi elmi pedaqoji və təşkilatçılıq fəaliyyətində hər zaman özünü göstərir.*

*Arif müəllim şərəfli ömür yaşayanlardan, yuksək ideallara sadiq olmaqla xalqın dərin hörmətinin qazanmış elm xadimidir. Respublikamızda elmin, təhsilin təşkilində xüsusi xidmətləri olan görkəmli alim, fəal ictimai xadim akademik Arif Mir Cəlal oğlu Paşayevi təhsil ictimaiyyəti adından yubileyi münasibətilə təbrik edirik.*

**Zülfiyyə Vəliyeva**
ADPU ETM-nin elmi işçisi
Respublikanın Əməkdar Müəllimi

# GÖZLƏRİNDƏN NUR YAĞAN İNSAN



*2005-ci ildə ilk dəfə Arif müəllim Paşayevlə "Dədə Qorqud" Milli Fondunun rəhbəri, "Azərbaycan Dünyası" beynəlxalq dərgisinin baş redaktoru və təsisçisi Eldar İsmayılovla birgə görüşümüz oldu. İlk dəqiqələrdən Onun səmimiyyəti və mehriban baxışları mənim diqqətimi cəlb etdi. Həmin gün iki yeni kitabımı Arif müəllimə hədiyyə etdim. Çox sevinərək mütləq oxuyacağını bildirdi.*

*Arif müəllimin Azərbaycanın bütövlüyü, elm və mədəniyyətimizin inkişafında müstəsna xidmətləri vardır. Mehriban xanım Əliyeva da valideynlərinə layiqli övlad olaraq Ali baş komandan, prezidentimiz cənab İlham Əliyevlə birlikdə ölkəmizin quruculuğunda və inkişafında əl-ələ verərək Ata nəsiyyətini uğurla həyata keçirirlər.*

*Əziz və hörmətli Arif müəllim! Sizin 90 illik Yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edərək Sizə və Sizin simanızda doğmalarınıza uzun ömür, cansağlığı Allahdan arzu edirəm.*

**Hörmətlə,**
"Dədə Qorqud" Milli Fondunun İdarə Heyətinin üzvü, dramaturq, nəğməkar şair **Ramiz Abdullayev**

# BİR ALİM ÖMRÜ



## Arif Mir-Cəlal oğlu Paşayev...

Bu adı eşidərkən Azərbaycanın görkəmli oğlu, ziyalısı, fizika-riyaziyyat elminə böyük töhfələr vermiş görkəmli şəxsiyyət, neçə-neçə elmi işlərin, elmi kitabların müəllifi, gözəl müəllim, akademik, alim və eyni zamanda alicənab bir insan gəlir gözümüzün önünə.
Elm tariximizə adını qızıl hərflərlə yazmış bu insan haqda çox şeylər yazmaq olar. Dərin zəkaya, gözəl əqidəyə və bir çox insani keyfiyyətlərə malik olan bu şəxs haqda çox sözlər yazılıb, deyilib.
Həyatda bir insanın dəyəri onun xalqına, elinə, ailəsinə verdiyi töhfələrdən bilinir. Arif Paşayevin töhfələri göz önündə, dəyəri isə dəyərlilərin qəlbindədir. Öz sözlərimlə desəm, "Zərin qədirini zərgərlər bilər, zərgərlər verərlər qızıla dəyər". Və elə məhz ona görə də, bu gün mən Arif müəllim haqda təkrar sözlər yazmaq istəmirəm. Özünəməxsus qaydada onu təbrik etməyi, qısa, lakonik bir tərzdə, onun haqda ürək sözlərimi yazmağı özümə borc və eyni zamanda fəxr bilirəm. Ona görə ki, belə oğullar xalqımızın qürur mənbəyi və fəxr yeridir.
Akademik, alim, ziyalı, müəllim olmaqla bərabər o, həm də gözəl ailə başçısı, gözəl ata və alicənab bir insandır. Onun elmə verdiyi töhfələrin ağırlığı və zənginliyi qədər də, ailədə gördüyü işlərin ağırlığı və zənginliyi vardır. Buna sübut Arif müəllimin böyütdüyü övladlarıdır. Onun böyütdüyü övladlar da Azərbaycanın mənəvi, siyasi, elmi və tarixi inkişafı naminə dayanmadan vicdanla çalışırlar. Onların gördükləri böyük işlərin sübutuna, düşünürəm ehtiyac belə yoxdur. Hər şey göz önündədir.
Bir alim ömrüdür Arif müəllimin ömrü. O ömür ki, 60 ildən çoxunu Azərbaycanda elmin inkişafına qürurla, vicdanla, dərin əzm və səxavətlə israf etmişdir. Bəli, bu bir alim ömrüdür. Nə deyim?!
Bir el qızı kimi, Azərbaycanda belə dəyərli insanların hər zaman var olmağını Uca Allahdan diləyirəm. Arif müəllimə təbrikimi şairə kimi şeir şəklində çatdırıram.

*Qələmimi alıb bu gün əlimə,*
*Təbrik göndərirəm Arif müəllimə.*
*Tanrı qoy yar olsun siz tək insana,*
*Lazımsız hər zaman Azərbaycana.*
*Yaşayın, yaradın, lazımsız elə,*
*Hələ yarım əsr bu gündən belə...*

***Dərin və böyük ehtiramla***
***Aytəkin Mehmanqızı***

# Dədə Qorqud

## milli fondunun xoşməramlı missiyası

Öz tarixi və dini kökləri üzərində ümumbəşəri prinsiplərə əsaslanan hər bir cəmiyyət öz qanunlarını rəhbər tutur.

Demokratik dövlətlərdə yaradılan fondlar elm və mədəniyyət sahəsində milli nailiyyətlərin və xalqa xidmət etməyin təbliğatçısı funksiyasını yerinə yetirir. Eyni zamanda həmin fondlar gənc nəslə öz bilik və bacarıqlarını cəmiyyətin xeyrinə sərf etmələri üçün şərait yaradır. Onlar beynəlxalq aləmdə öz xalqlarının tarixi, mədəniyyəti, elm və daxili nailiyyətləri haqqında informasiyalar yaymaqla başqa dövlətlərdə öz xalqlarının cəlb-edici obrazını yaratmaqla yanaşı, beynəlxalq siyasətdə cari problemlərin həll olunmasında öz dövlətlərinə kömək etmiş olurlar.

Azərbaycanın tarixində elə şəxsiyyətlər olmuşdur ki, öz həyat və yaradıcılıqlarını millətin maariflənməsinə, mədəni və mənəvi dəyərlərinin yüksəldilməsinə, sərf etmişlər. Hətta həmin insanların peşəkar müdaxiləsi olmadan, xidmətləri yüksək humanizm nümunəsi kimi mənsub olduqları xalqın və tarixin yaddaşına əbədi həkk olunmuşdur. Z.Tağıyev, M. Muxtarov, H. Hacınski, Nabat xanım Xocabəy qızı Əmircanlı, S. Əsədullayev, Seyid Mirbabayev və başqaları öz yaradıcı əməklərini cəmiyyətin maraqlarına cavab verən istiqamətə yönəltmişlər. Əsası keçmişdə qoyulmuş ideya ənənələri gələcək nəsillər üçün sanki normasına çevrilmişdir. Keçmişin xeyirxah ənənələri bu gün həm Azərbaycanda, həm də başqa dövlətlərdə yaşayan həmvətənlərimiz tərəfindən davam etdirilir. Azərbaycanlıların harada yaşamasından asılı olmayaraq, məktəb mədəniyyət, idman və sağlamlıq mərkəzləri tikdirmələri Türk dünyasına dəstək olmalarının bariz nümunəsidir.

Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra milli özünüdərkin mühümlüyünü başa düşən insanlar tərəfindən fondlar yaradılır və onlar Azərbaycan mədəniyyəti, incəsənəti, elmi və təhsili haqqında planlı şəkildə müxtəlif layihələr hazırlayıb, həyata keçirməyə başladılar. Bu baxımdan "Azərbaycanın mədəniyyətinin dostları", "Heydər Əliyev" fondları xeyriyyəçilik və Azərbaycanın bütün dünyada təbliğ olunub, tanınmasında görülən işlərə görə ən parlaq nümunədir.

Azərbaycanda yaxşı ənənələri davam etdirənlərdən biri də "Dədə Qorqud" Milli xeyriyyəçilik fondudur. Dədə Qorqud kimdir və biz onun haqqında nə bilirik? Dədə Qorqud bütün Türk dünyasının əsrlər boyu davam edən ənənələrinin, mədəniyyətinin, məişətinin, təfəkkürünün, və milli dilinin banisidir. Bu mənada onun obrazı Türk xalqlarının müqəddəs simvoludur. Buna görə də Dədə Qorqudun adını daşıyan fond birinci növbədə onun ideallarını və xalqın ruhunu tərənnüm edən ənənələrini təbliğ etməlidir.

Bu mənada fondun üzərinə çox məsuliyyətli və şərəfli bir vəzifə düşür. Qeyd etmək lazımdır ki, uzun illər ərzində bu istiqamətdə fond tərəfindən xeyli iş görülmüşdür. Əlbəttə ki, fondun özünəməxsus proqramı və məqsədləri vardır və o, nəinki təkcə Azərbaycanda, eləcə də, xarici ölkələrdə ardıcıl olaraq məqsədyönlü iş aparılır. "Dədə Qorqud" fondunun başlıca və özünü doğruldan vəzifələrindən biri Türk dünyasının lider və böyük şəxsiyyətlərini bir arada birləşdirməsidir. Türk xalqının tarix və mədəniyyətinin, eləcə də dilinin çox qədim və sağlam kökləri var. Özümüz və müdrik əcdadlarımız haqqında gərəkli məlumatları gələcək nəsillərə ötürmək çox asan iş olmasa da vacib məsələlərdəndir. Keçmişin və indinin prioritetlərinin dərin əlaqələri Türk dünyasının dəyərlərinin, vətənə sevgi və xidmət ənənələrinin qorunmasına şərait yaradır və "Dədə Qorqud" fondu böyük işlərin mərkəzinə çevrilib.



Bu gün Azərbaycan vətənin inkişafı və milli özünüdərkin təbliğinə xidmət edən oğulları ilə fəxr edə bilər. Onların adları gördükləri işlərin mühümlüyünə və vacibliyinə baxmayaraq çoxlarına məlum deyil. Qeyd etmək lazımdır ki, Dədə Qorqud fondu öz ətrafında Azərbaycanın xeyli ziyalısını toplaya bilib. Məhz Dədə Qorqud fondu yaradıcı insanların qiymətləndirilməsi kimi məsuliyyətli bir işi öz üzərinə götürüb. Fondun təsis etdiyi "Vətən övladı", "Mehriban ana", "Qızıl ürək" ordenləri və "Dədə Qorqud" mükafatları ilə layiqli insanları, vətənə, xalqa və öz köklərinə bağlı olan adamları müntəzəm olaraq təltif edir.

Beynəlxalq aləmdə Dədə Qorqud fondunu və onun fəaliyyətini Azərbaycan Dünyası jurnalı işıqlandırır. Bu jurnal eyni zamanda dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlılar üçün mədəni və maarifləndirici körpü rolunu oynayır, Azərbaycan diasporu və həmvətənlərimizi ruhlandırır. Dədə Qorqud fondunun təsisçiliyi ilə nəşr olunan jurnal ilk gündən geniş dünya məkanında azərbaycanlıların və həmvətənlərimizin birləşməsi kimi xeyriyyəçi bir məqsədə xidmət edir. Jurnal müasir Azərbaycan mədəniyyətini və Rusiya ilə olan tarixi əlaqələrin köklərini təbliğ edən əsas mətbuat orqanlarından biridir.

Bizi –Türk azərbaycanlılarını güc, dövlət və səadət birləşdirir. Amma Türk xalqları arasında birlik və dostluq da olsaydı daha yaxşı olardı. Bu sözləri fondun ali məqsədini ifadə edir. Başqa cür də ola bilməz. Çünki Dədə Qorqudun sülhpərvər ideallarını yalnız fəal və yorulmaz yaradıcı fəaliyyətlə həyata keçirmək olar.

Cəmiyyətin inkişaf prosesində, ələlxüsus da cəmiyyət daxili inkişafının həlledici məqamlarını yaşayanda həmişə ayrı-ayrı insanlar və ya insanlar qrupu peyda olur ki, həmin insanlar cəmiyyətin və dövlətin inkişaf istiqamətlərini daha dərk edərək, həm də mənsub olduqları xalqın mühüm bir zərrəsi kimi cəmiyyətin inkişafının prinsiplərini izah edirlər və bütün güclərini və vəsaitlərini sərf edirlər ki, ictimai fikri cəmiyyətin inkişafı istiqamətindəki əsas məsələlərin həllinə yönəltsinlər.





# THE JOURNEY OF FRİENDSHİP AND BROTHERHOOD BETWEEN PAKİSTAN AND AZERBAİJAN WİLL CONTİNUE WİTH MORE VİGOR AND DYNAMİSM İN THE MONTHS AND YEARS AHEAD.







DƏDƏ QORQUD NATIONAL FOUNDATION
"WORLD OF AZERBAIJAN" INTERNATIONAL MAGAZINE

According to the decision of the Board of Directors of the "Dədə Qorqud" National Foundation and the international magazine of "World of Azerbaijan" dated on March 23, 2024, for his unparalleled services in the development of diplomatic relations between Azerbaijan and the Islamic Republic of Pakistan, the Ambassador Extraordinary and Plenipotentiary of the Islamic Republic of Pakistan to Azerbaijan

**Bilal Hayee**
is hereby awarded with the

**"QIZIL ÜRƏK"**

President of the "Dədə Qorqud" National Foundation
Editor-in-chief and founder of the "World of Azerbaijan" International magazine:
Eldar Ismail

Friends and well wishers of Pakistan in Baku organized a reception in honour of Ambassador of Pakistan Mr. Bilal Hayee. Ambassador Bilal Hayee was awarded with Order of the "Qızıl Ürək" in recognition of his services and strengthening Pakistan Azerbaijan relations. The Order of the "Qızıl Ürək" was established by "Dədə Qorqud" National Foundation and "World of Azerbaijan" International magazine.

Ambassador Bilal Hayee thanked the organizers for their respect and affection for Pakistan. Ambassador added that the journey of friendship and brotherhood between Pakistan and Azerbaijan will continue with more vigor and dynamism in the months and years ahead. As the two countries stood by each other during times of conflict and challenges, their partnership will become stronger for mutual development and prosperity, he remarked.

A large number of Azerbaijani nationals from various walks of life and members of Pakistan diaspora attended the event and thanked Ambassasor Bilal Hayee for his diplomatic services in Azerbaijan.

# “ AZƏRBAYCAN VƏ PAKİSTAN İSLAM RESPUBLİKASI ARASINDA OLAN DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTİ ƏBƏDİDİR”

27 İyun 2024-cü il tarixdə Azərbaycanın mədəniyyət ocağı sayılan Beynəlxalq Muğam Mərkəzində Azərbaycan və Pakistan İslam Respublikasına həsr olunan tədbir baş tutmuşdur. “Dədə Qorqud” Milli Fondunun yaradıcısı və prezidenti, “Azərbaycan Dünyası” beynəlxalq dərgisinin təsisçisi və baş redaktoru Eldar İsmayılov ölkələrimiz arasındakı dostluğun qədim tarixə malik olduğunu bildirdi:



Eldar İsmayılov:
“Azərbaycan-Pakistan dostluğu çox qədimdir. Bu dostluq Hacı Zeynalabdin Tağıyevin dövründən başlayır. Biz də bu dostluğun inkişafı üçün əlimizdən gələni edirik. “Azərbaycan dünyası” beynəlxalq dərgisinin “Salam Pakistan” adlı xüsusi buraxılışını Pakistan İslam Respublikasına həsr etmişik”. Həmçinin Azərbaycan və Pakistan arasında olan diplomatik əlaqələrin yaxşılaşdırılmasında əvəzsiz xidmətlərinə görə Eldar İsmayılov “Dədə Qorqud” Milli Fondunun təsis etdiyi “Qızıl Ürək” ordenini Pakistanın Azərbaycandakı fövqaladə və səlahiyyətli səfiri cənab Bilal Hayeeyə təqdim etmişdir.



Bilal Hayee:
“Bu, mənim üçün şərəfdir. Öz ölkəm və təmsil etdiyim dövlətin adından təşəkkürümü bildirirəm!”- deyə səfir minnətdarlığını bildirdi: “Ailəm və xanımımla 4 il xidmət etdiyimiz Azərbaycandan xoş hisslərlə ayrılırıq”. B.Haye 25 illik diplomat kimi fəaliyyəti dövründə Azərbaycanda çalışdığı illəri həyatının ən xoş və səmərəli illəri kimi dəyərləndirdi: “Dünyanın bir çox ölkələrində fəaliyyət göstərmişəm. Mənim üçün Azərbaycanın xüsusi yeri var. Fəxr hissi ilə qeyd edirəm ki, Azərbaycanın heç bir kilometri də artıq işğal altında deyil. Azərbaycan öz ərazi bütövlüyünə nail olub. Biz müharibə vaxtı da bir yerdə olmuşuq, sülh və tərəqqi şəraitində də bir yerdəyik. İşğal altında olan ərazilərin azad olunmasına görə dövlətimiz adından Azərbaycan xalqını təbrik edirəm!”.













May ayının 8-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan tar dünyasının aparıcı simalarından biri, Azərbaycan tarının dünya arenasında layiqli təmsilçisi olan tarzən Rüfət Həsənovun pedaqoji fəaliyyətinin 20 illiyinə həsr olunmuş "11 simin sədası" adlı tədbir keçirildi. Rüfət müəllimin bir musiqi bağbanı kimi yetişdirdiyi şagirdlərin bir-birindən əsrarəngiz ifaları tədbirə öz incə naxışlarını vurdu. Bir müəllimin ən böyük uğuru onun tələbələrinin üzərində çəkdiyi zəhmətlərin səhnədə bəhrəsini görməkdir.
Bəli, görülən işlərin Azərbaycan mədəniyyətinin sadiq dostları tərəfindən qiymətləndirilməsi tarzən Rüfət Həsənova ikiqat bayram ovqatı yaşatdı. Tədbirdə yaşanan məna dolu anlardan biri də mükafatlandırılma mərasimi oldu. Mükafatlandırma mərasiminin mötəbərlik yükü ondan ibarət idi ki, "Dədə Qorqud" kimi Milli Fond tarzən Rüfət Həsənovu öz qiymətli mükafatı ilə təltif etdi. "Dədə Qorqud" fondunun rəhbəri Eldar İsmayılov özündə əsl Dədə Qorqud müdrikliyi daşıyan bir ziyalı kimi Rüfət Həsənovun Azərbaycan tar dünyasında, ifaçılıq tarixində qazandığı uğurları vurğuladı.
Rüfət Həsənov da öz növbəsində "Dədə Qorqud" Milli Fondunun rəhbərinə, eləcədə bu fondun bütün əməkdaşlarına öz dərin minnətdarlığını bildirdi. "Dədə Qorqud" mükafatını böyük qürur və fəxarət hissi ilə qəbul edən Rüfət müəllim layiq görüldüyü mükafatın mənəvi dəyərlərini əziz tutaraq, bu mükafatın ona verilən mükafatlar arasında ən sevimli mükafat olduğunu qeyd etdi.
Bəli, bir tar sevdasıdır onu bu dünyaya bağlayan, öyrəndiklərini öyrətmək, müəllim ünvanına yaraşan bir həyat sürmək. Böyüyən fidanların yoluna nur çiləyən müəllim ömrü.... Bu onun həyat hekayəsi onun ömür dastanıdır.

# YAŞANAN MƏNA DOLU ÖMRÜN MÜKAFATI

11 simin sədası bir tarzənin ürəyinin parası 11 simin sədası bir tarzənin gözlərinin qarası 11 simin sədası sənsən bizim ruhumuzun qidası
Yaşanan məna dolu ömrün ən böyük mükafatı bir müəllim kimi tar bağında gül kimi yetişdirdiyin tələbələrin ətrini oksigen kimi nəfəsinə çəkməkdir. Rüfət Həsənov adlı 20 illik tar məktəbi....
Tarı məhz Rüfət müəlliimlə sevməyə başlayan balaca ürəklər... Ürəkləri balaca, tara olan sevdaları bir dərya.... Ustadından güc alıb tar tutan əllər... Bir müəllimin işığına toplaşan balaca tarzənlərin böyüyən ordusu...
Bu ordu bir müəllim ömrünün tar dünyasına bəxş etdiyi dəyərli pöhrələrdir. Elə bir ömür ki, hər səhifəsi, hər zərrəsi Azərbaycan tar ifaçılığının inkişafına yeni tar ulduzlarının yaranmasına fədakarcasına xidmət göstərir və göstərməkdədi... Onların içində elə bir tələbə yoxdur ki, respublika və beynəlxalq müsabiqə laureatı olmasın, mükafatlara layiq görülməsin. Bu saysız, hesabsız tələbə uğurunun arxasında yalnız bir ad -Rüfət Həsənovun dağ vüqarı dayanır. Elə bir dağ ki, hər tələbəsinə bir ata qayğısı göstərdi, hər tələbəsinə uğurlu bir musiqi cığırı açdı. Rüfət Həsənov adlı bir musiqi cığırı... Bu cığırın kandarına qədəm qoyan hər tələbə zirvəyə doğru gedən bir işığın nuruna qərq olur. Onların hər biri məhz Rüfət müəllimin barmaqlarından süzülən musiqi bulağından içərək, onun beyninin ifraz etdiyi musiqi oksigenindən qidalanaraq , məhz onun musiqi nəfəsindən pərvazlanaraq ildırımlı yollarda addımlayır. Bu cığırın özündə qəribə bir sehr, qəribə bir güc və mən deyərdim qəribə bir güvən hissi var. Elə sonuncudan başlamaq istəyirəm... Güvən hissindən...Çünki Rüfət müəllimin bir tək adı kifayətdir ki, ona pənah gətirən şagirdin qəlbi güvən hissi ilə alovlansın... Məhz onun varlığı və nəfəsi şagirdinin əllərinə inanılmaz bir güvən hissi verir. Rüfət müəllim könül qapısından hansı tələbəni buraxarsa, bir ata kimi o hansı musiqi övladını sığallayarsa tar ifaçılıq tarixində yeni adın ulduzu parlamağa başlayır....
Mən müəllim ömrünü hər zaman yanan bir şama bənzətmişəm... Özünü yandıraraq əridib , tələbəsinin yoluna işıq salan bir müəllim ömrü.... Rüfət müəllimi məktəb illərindən tanıyan bir insan kimi onu deyə bilərəm ki, o, özü də böyük bir



məktəb keçmiş və keçdiyi məktəblə özü-özlüyündə böyük məktəbə çevrilmişdir. Ona pənah gətirən hər şagird ustadının tara olan eşqindən pərvazlanır. Ondan gələn tarın işığı, qarşısında dayanan balaca tar aşiqini də öz ağuşuna alır. Rüfət müəllimdən gələn fədakarlıq ruhu şagirdlərinin canına ,qanına, ruhuna hopur. Bax budur əsl müəllimin yaratdığı məktəb....

Müəllim haqqında bir çox müdrik kəlamlar var. Amma onlardan məni ən çox təsirləndirən kəlamı sizinlə bölüşmək istəyirəm. Deyir, Allahım məni göydən yerə endirdi, müəllimim məni yerdən göyə ucaltdı. Mən gördüyüm, tanıdığım Rüfət müəllim də öz müəllimlərinin etimadlarını artıqlaması ilə doğruldaraq, indi özü bir müəllim kimi şagirlərinin pillə-pillə ucalması yolunda əlindən gələn bütün fədakarlıqları edir. O, sanki tar dünyamıza sədaqətlə xidmət göstərən və böyüməkdə olan tarzən ordusunun musiqi komandiridir. Yaranmaqda olan tarzən ordusu onun göstəricisidir ki, Azərbaycan tarı əmin əllərə ötürülməkdədir. Bu isə bir müəllim üçün əbədi həyat vəsiqəsi qazanmaq deməkdir!



Musiqişünas Nərgiz Kərimova










On May 8th, an event was held at International Mugham Centre named "The voice of 11 strings" which was dedicated to 20 years of pedagogical activity of tar player Rufat Hasanov who is one of the leading figures in Azerbaijan's tar world, worthy representative of Azerbaijan's tar in the world arena. Magnificient performances by Mr.Hasanov's students added their subtle touches on event. The greatest success of a teacher is to see consequences of his efforts on his students on stage.

Appreciation of the hard work by loyal allies of Azerbaijan's culture was delightful indeed for Rufat Hasanov. One of the most meaningful moments that happened during event was the award ceremony. The respectability burden of award ceremony was that "Dede Gorgud" Foundation awarded Rufat Hasanov with its own valuable award. Head of "Dede Gorgud" Foundation, Eldar İsmailov highlighted achievements of Rufat Hasanov in Azerbaijan's tar world, and in his history of performance as an intellectual who carries the wisdom of Dede Gorgud.

Rufat Hasanov expressed his deep gratitudes to Head of "Dede Gorgud" Foundation and other members of this foundation. He noted that this award was the dearest award ever, by receiving it with strong sense of pride and considering its moral value.



# REWARD OF MEANİNGFULLY LİVED LİFE

It was a passion towards tar which bonds him to this life, teaching what he learned, living a life that suits a teacher. A life that spreads glow to growing saplings...It was his life story...

The sound of 11 strings is the price of a "tarzen's" heart (Tarzen – a person who is a tar player)
The sound of 11 strings is the black ness of a musician's eyes
You are the sound of 11 strings, the food of our soul

The overwhelming remuneration of a life full of meaning is to sniff in the fragrancy of the students you raised like flowers in the "tar" garden as a teacher. 20-year tar school named after Rufat Hasanov.

The tiny hearts that began to adore the Tar under the guidance of teacher Rufat... Their hearts are small, their love for the Tar is a ocean.... The Tar-holding hands derived strength from their master...The growing army of little "tarzens" gathered in the light of a teacher...

This army represents the valuable jewels that a teacher's life contributes to the Tar world. A life in which every page and every bit of it selflessly serves the development of Azerbaijani Tar performance and the creation of new tar stars. There is not a single student among them who is not a laureate of republican and international competitions, who is not awarded prizes. Rufat Hasanov's power is the sole reason for the success of these countless students. A power that provided a father figure for each of its students while also paving the way for each of them to succeed musically. A music track called Rufat Hasanov... Every student who enters this path is immersed in a light that leads to the top. Each of them walks on the thunderous roads, but at these roads they are drinking from the musical spring that flows from teacher Rufat's fingers, feeding on the musical oxygen released by his brain, and exhaling his musical breath.The trail itself has an otherworldly charm, strength, and, dare I say it, confidence. I want to start with the last one... Confidence. Because just the mention of teacher Rufat's name can ignite a student's confidence and heart with just a single thought...It is his presence and breath that gives the hands of his student an incredible feeling of confidence. A new star in the annals of tar performance will emerge if Mr. Rufat opens his heart to any student and tenderly strokes any child with a musical temperament like a father. I always likened the life of a teacher to an always burning candle. The life of a teacher who burns himself and shines a light on his student's path. I have known teacher Rufat since he was in school, and I can tell you that he attended a great school and went on to become a great school in his own right. The intensity of his master's love for Tar overwhelms every pupil who seeks solace in him. The light of the Tar coming from it also embraces the little tar lover standing in front of it. The spirit of self-sacrifice from teacher Rufat permeates the soul, blood, and spirit of his students. This school was established by a qualified teacher...

There are numerous sage proverbs that mention teachers. I would like to share with you the sage proverbs from them that most touched me. It was like, God brought me down from heaven to earth, my teacher raised me from earth to heaven. I have personally witnessed and know that Rufat, the teacher, has more than earned the confidence of his teachers. As a teacher, he is now giving his all to help his students advance gradually. He seems to be leading a growing army of "tarzens" who serve our tar world with loyalty, almost like a musical commander. The fact that tarzans are starting to emerge in force is a sign that Azerbaijani tar is being handled carefully. This entails obtaining a teaching license that is valid for life!

Musicologist Nargiz Karimova



09.08.2024- cü il, tarixində Bakı şəhəri Beynəlxalq Muğam Mərkəzində "Dədə Qorqud" Milli Fondu və "Azərbaycan Dünyası" beynəlxalq dərgisinin birgə layihəsi olan tədbir keçirildi. Tədbir Azərbaycanın Milli Qəhrəmanı general - mayor Polad Həşimovun vəfatından sonra "Vətən Övladı" ordeni və Azərbaycanımıza əvəzolunmaz qəhrəmanı bəxş edən Səmayə Ananın "Mehriban Ana" ordeni ilə təltif olunmasına həsr olundu. "Mehriban Ana" ordenini fondun rəhbəri və "Azərbaycan Dünyası" beynəlxalq dərgisinin baş redaktoru və təsisçisi Eldar İsmayılov Səmayə Anaya təqdim etdi.





















"Vətən Övladı" ordenini "Dədə Qorqud" Milli Fondunun rəhbəri və "Azərbaycan Dünyası" beynəlxalq dərgisinin baş redaktoru və təsisçisi Eldar İsmayılov general-mayor Polad Həşimovun övladı Davud Həşimova təqdim etdi.





“Dədə Qorqud” Milli Fondunun və “Azərbaycan Dünyası” beynəlxalq dərgisinin İdarə Heyətinin 10 May 2024-cü il tarixli qərarı ilə xalqına və peşəsinə göstərdiyi qayğı, diqqət və ədaləti ilə hər zaman seçilərək Vətəninə xidmət göstərən hüquqşünas, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri və layiqli insan Səadət İnayət qızı Bəktaşi “ƏDALƏT QILINCI” ictimai ordeni ilə təltif edilmişdir.



Azərbaycan Vətən Müharibəsi Veteranları İctmai Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, ehtiyatda olan zabit, Qarabağ müharibəsi veteranı Altay Babaşovun “Dədə Qorqud” Milli Fondunun təsis etdiyi «Vətən övladı» ordeninə layiq görülmüşdür.

Səbail rayon ağsaqqallar şurasının sərdr müavini Azərbaycan Vətən Müharibəsi Veteranları İctmai Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri, ehtiyatda olan palkovnik zabit, Qarabağ müharibəsi veteranı Altay Babaşovun “Dədə Qorqud” Milli Fondunun təsis etdiyi «Vətən övladı» ordeninə layiq görülmüşdür Orden «Dədə Qorqud” Milli Fondunun təsisçisi və prezidenti Eldar İsmayılov tərəfindən təqdim olunmuşdur. Mükafatın olduqca mənəvi əhəmiyyət kəsb etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırmış və Altay Babaşovun bu mükafata layiqli namizədlərdən biri olduğunu vurğulanmışdır. Həmçinin Altay Babaşovun rəhbərliyi altında, «Veteranın səsi» adlı jurnalın işıq üzü görməsi həyata keçiriləcəkdir.





Azərbaycanın Xalq Artisti, istedadlı kino və teatr aktyoru, gözəl insan və layiqli şəxsiyyət Məmmədsafa Qasımov Azərbaycanın mədəniyyəti və incəsənəti sahəsindəki əvəzsiz xidmətlərinə görə "Vətən Övladı" ictimai ordeninə layiq görülmüşdür Orden "Dədə Qorqud"Milli Fondunun prezidenti və "Azərbaycan Dünyası" beynəlxalq dərgisinin baş redaktoru və təsisçisi Eldar İsmayılov tərəfindən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində təqdim edilmişdir. Eyni zamanda "Azerbaycan Dünyası" beynəlxalq dərgisinin Məmmədsafa Qasımova həsr edilmiş dərgisinin təqdimatı baş tutmuşdur.Tədbirdə həmçinin Azərbaycanın görkəmli ziyalıları və incəsənət xadimləri, "Dədə Qorqud" Milli Fondunun İdarə Heyətindən nümayəndələr və "Azərbaycan Dünyası" beynəlxalq dərgisinin əməkdaşları iştirak etmişdir.











Azərbaycan Dünyası" beynəlxalq dərgisinin və "Dədə Qorqud" Milli Fondunun İdarə Heyətinin 08 Yanvar 2024-cü il tarixli qərarı ilə Azərbaycan elminə əvəzsiz töhfələrini bəxş etdiyinə və təhsil sahəsində göstərdiyi misilsiz xidmətlərinə görə, Azərbaycanlı alim, İqtisad Elmləri Doktoru və layiqli şəxsiyyət Ədalət Cəlal oğlu Muradov "Vətən Övladı" ictimai ordeni ilə təltif edilmişdir.



"Dədə Qorqud" Milli Fondunun və "Azərbaycan Dünyası" beynəlxalq dərgisinin İdarə Heyətinin 18 İyun 2024-cü il tarixli qərarı ilə Azərbaycanın musiqi aləminə əvəzsiz töhfələrini bəxş edən, ifaları ilə ürəklərə yol tapan və Azərbaycanı layiqincə təmsil edən incəsənət xadimi, Azərbaycanın xalq artisti və layiqli şəxsiyyət Qurbanbəyov Sərxan Rəşid oğlu "Dədə Qorqud" Milli Fondunun təsis etdiyi "QIZIL ÜRƏK" ordeni ilə təltif olunmuşdur.

Azərbaycanın Gürcüstan və Moldovada Fövqəladə və Səlahiyyətli səfiri, Azərbaycan Respublikası Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müdiri, "Dədə Qorqud" Milli Fondunun İdarə Heyətinin üzvü, professor Namiq Əliyev fondun təsis etdiyi "Həzi Aslanov" ordeninə layiq görülmüşdür. Tədbirdə Namiq müəllim 17 ölkədə 13 dildə təqdim olunan kitabları ilə tədbir iştirakçılarını tanış etmişdir. Onun informasiya mübadiləsi zamanı Azərbaycanın səsini dünya müstəvisinə düzgün şəkildə çatdırılmasında müstəsna xidmətləri vardır. "Həzi Aslanov" ordenini Namiq Əliyevə "Dədə Qorqud" Milli Fondunun prezidenti və "Azərbaycan Dünyası" beynəlxalq jurnalının təsisçisi və baş redaktoru Eldar İsmayıl tərəfindən təqdim olunmuşdur.










2011.09.17
















Xəmsə





























Jurnal 1998-ci ildə Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat şəhadətnaməsi №639. Redaksiyanın fikri müəllifin fikri ilə üst-üstə düşməyə bilər. Əlyazmalar qaytarılmır və resenziya edilmir. Məlumatlardan və şəkillərdən istifadə etmək üçün redaksiyadan yazılı surətdə icazə alınmalıdır.